# Rüzgar deyil, yalnızlığımdı yarpaq-yarpaq titrəyən



Cahid GÜLƏBİ

## HEKAYƏ

Sənin dodaqların çəhrayı,
Barmaqların bəyaz;
Al, tut əllərimi, körpəm,
Tut bir az!

Mənim doğulduğum kənddə
Qoz ağacları yoxdur;
Buna görə sərinliyə
həsrətəm,
Sərinlət ürəyimi,
sərinlət, körpəm,
Sərinlət bir az!

Mənim doğulduğum kənddə
Taxıl zəmiləri yoxdur;
Dağıt saçlarını,
dağıt, körpəm,
Sovrulsun bir az!

Mənim doğulduğum kəndi
Axşamlar
quldurlar basardı;
Buna görə
yalnızlığı heç sevmirəm,
Danış, körpəm,
Danış bir az!

Mənim doğulduğum kənddə
Müdam
şimal külәkləri əsərdi;
Buna görə dodaqların çat-çatdı,
Oxşa, körpəm,
Oxşa bir az,
Öp, körpəm,
Öp bir az!

Sən Türkiyəm kimi
pırıl-pırıl və gözəlsən!
Anlat mənə,
anlat doğulduğun kəndi,
Anlat, körpəm,
Anlat bir az!

## MAT QOYSUN

Gəl səninlə şəkil çəkək,
Öncə bir üz, incədən incə.
Kiçicik,
fındıq boyda burun
və gözlər zeytun
iriliyində.

Sonra bir lalə,
upuzunboylu,
Qabığı soyulmuş
badamdan da ağ
bir bədən,
Sonra bir yanaq,
Elə bir yanaq ki, səhər vaxtı
Xoşbəxtlik vəd etsin
günəş doğarkən.

Və saçlar çəkək,
buludlar,
türkülər,
nağıllar kimi...
Sonra
hamısının üstündə
qocaman bir insan ürəyi.
Elə bir ürək ki,
sevgiylə,
dostluqla,
xoşbəxtliklə dop-dolu olsun
və bütün şairləri
mat qoysun!

**Yenə qadınlardı aydınladan küçələri,**
**Gənc qızlar bəmbəyaz işıqlar kimi.**

## AÇIQ

Biz həp açıq danışdıq.
Hər sözümüz
göy üzündən daha təmiz,
daha mavi idi.
Sanki
azad quşlar kimi
süzürdük havada -
Gözlərimizdə
günəşdən parlaq parıltılar...

Biz yaxşıya yaxşı,
gözələ gözəl dedik,
Nağıllardan
yığdıq sözləri,
inci kimi, dürr kimi.
Yalan nədi,
bilmədi şeirlərimiz,
xəyallarımız elə,
ümidlərimiz də elə...

Biz taxıl zəmisində buğda,
Gül bağçasında gül,
Qatarlarda fit səsiydik.
Ulduzlara çoban,
dəyirmanlara su,
Səhralara bulud kölgəsiydik.
Amma
hansı günü saxlaya bildik?
Axdı getdi...
Axdı getdi...
Axdı getdi...
Buludlar yoxa çıxdı
göy üzündən -
Küləkmi dağıtdı onları?

Bilirdik
həyatın gözəl olduğu qədər
bezdirici olacağını,
Bilirdik
bir gün
sevgimizin qocalacağını,
Bilirdik
bir gün
xatirələrimizin
şam kimi öləziyib sönəcəyini,
Bilirdik
bir gün
qara qışın gələcəyini...

İştə budur -
Bahar çıxıb getdi, biz qaldıq...

## YURD

Tokatla Niksar arasında
Bir kiçik ev görünür, uzaqdan,
Divarları taxtadan,
önündən çeşmə axar,
Çeşmə deyil,
Sanki yamyaşıl bir çəməndi
cücərib torpaqdan...
Yağış yağar,
üzüm-gözüm cızılar
pəncərə şüşələrində.
Rüzgar deyil,
yalnızlığımdı
yarpaq-yarpaq titrəyən
cökə ağaclarında....

Bağda
əlimlə əkdiyim
allı-güllü çiçəklər
Hara getsəm,
uşaq kimi
arxama düşüb
gələcəklər.
Ax desən,
çay gurul-gurul axar gedər,
Xəyal qurmaq istəsəm,
Buludlara
bir əl yelləməyim yetər.

Bir çərpələng
qalıb göy üzündə,
Bəlkə qanadı sınmış,
Bəlkə vurulmuş,
Bəlkə bir şey heç olmamış...
Amma mənim gözüm dolmuş.

Ha baxsanız da
görə bilməzsiniz,
Mənim yurdumdu ora.
Ardıc, cökə...
Bir də, bir də tozlu yollar
Tokatla Niksar arasında...

## AXŞAM QARANLIĞINDA

Axşam qaranlığında
hamı sarmaş-dolaş,
Mən də sarılmışam yalnızlığıma.
Maşınlar güllətək şütüyüb keçər,
Trolleybuslar sallana-sallana.

Yenə qadınlardı aydınladan küçələri,
Gənc qızlar bəmbəyaz işıqlar kimi.
Bir az kiçiciklər gülrəngi, işıq saçar,
On beşinə varmamışlar masmavi.

Mən də yalnızlıq saçaram,
İçməyə də qorxaram, əfkar basar.
Budaqlardan qopan
sapsarı yarpaqlar kimi
Külək
xatirələrimi uçurar, uçurar...

Endim sahilə, dənizə baxdım,
Balıqlar sularda sarmaş-dolaş...
Nə edim, dənizə axdım, axdım,
Hüznlü bir çay kimi
udum-udum, yavaş-yavaş...

## ÇİÇƏKLƏ SÖHBƏT

Bir pəncərəm,
bir masam yox ki,
səni qoymağa,
Bir sevgilim yox ki,
səni verməyə,
Çiçək,
Səni alım, neyləyim?




## RÜZGAR

İndi bir rüzgar
keçdi buradan
Yüyürdüm arxasınca,
amma yetişəmmədim.
Haralardan gəlmiş,
haraları görmüş -
Öyrənəmmədim.

Bəlli ki, dənizdən çıxmış,
Sahil boyu ötmüşdür.
Duz qoxusu,
Qətran qoxusu,
Tər qoxusu
Ürəyini allaq-bullaq etmişdir.

Sonra başlamış dırmanmağa
dağlara doğru,
Buludları ürkütmüşdür.
Yaylalarda otları
oxşaya-oxşaya böyütmüşdür.

Kəndlərə uğramışsa əgər,
Nəm, qaranlıq otaqlarda
beşikləri yelləmişdir.
Qızmar gün altında işləyənlərə
Sərinlik bəxş etmişdir.

Sonra enmişdir ovalara doğru,
Tarlalar - mor, pəmbə, bəyaz,
İrmələr tikan-tikan, mavi...
Toz-torpaq gözlərinə dolmuşdur.
Qızılgülə, laləyə bənzər
qızlar görmüşdür,
Birinin tellərini,
Birinin əllərinin xınasını,
Birinin gözlərinin sürməsini
Alıb getmişdir.

İndi bir rüzgar
keçdi buradan,
Yüyürdüm arxasınca,
amma yetişəmmədim.
Haralardan gəlib, haralara gedir...
Soruşsaydım,
deyərdi hər halda,
Soruşammadım.

## SƏN YOXKƏN

Sən yoxkən getdim
Qorxularımın üstünə,
Arxama heç baxmadan.
Sən yoxkən
Gümüş şeirlər yazdım,
Çox yanğınlar
çıxdı ürəyimdə,
Külünü belə sovurmadım
Sən yoxkən
Qanlı savaşlarım
Bəlalı sevdalarım
olmadı heç.
Sən yoxkən
Həp susdum,
Həp ağladım,
Həp yandım,
Həp dönüşünü gözlədim -
Bir gəlsən,
Həyatın əlindən alsan məni,
Bir gəlsən,
Ölümün əlindən alsan məni.

Sən yoxkən
Çox durdum
həyata qarşı təkbaşıma,
Sən yoxkən
Çox sovruldum
rüzgarlarında sənsizlik
dənizinin,
Sən yoxkən
ürəyim don vurmuş
qərənfil kimi bürüşdü,
Bayraqları
endirilmiş bir
qala kimi çökdüm...

Sən yoxkən
Həp susdum,
Həp ağladım,
Həp yandım,
Həp dönüşünü gözlədim -
Bir gəlsən,
Yanğının əlindən alsan məni,
Bir gəlsən...
Bir gəlsən...
Amma nə zaman gəlsən,
Yuxusuzluqdan
qan çanağına dönmüş
gözlərimi görəcəksən...

## NAĞILDAKI YALNIZLIQ

Mən yalnızlığı
Qaçar gördüm, uçar gördüm,
Mən yalnızlığı
Qərib gördüm, naçar gördüm,
Mən yalnızlığı
Gələr-keçər,
gələr-keçər gördüm...

## YOLÇULUQ

Bir təyyarəm
olmalıdı mənim,
Minib içinə,
Bu dünyanı gəzməliyəm.
Gedib
Aralıq dənizinin sahillərinə,
Mərhaba deməliyəm...

İsti-isti dənizlərdə
Çimən gəmiçi çocuqları
Bir təyyarəm
olamlıdı mənim,
Minib içinə,
Daha uzaqlara getməliyəm,
Ta Parisə, ta Berlinə
Mərhaba deməliyəm dörd iqlimdən.
Azadlıq üçün
döyüşməyə gələnlər,
Ölüm dolu günlər bitdimi?
Qan-qan deyən
tüfənglər susdumu?
Ac uşağın anası
qazan asdımı?

Bir təyyarəm
olmalıdır mənim,
Minib içinə,
Diyar-diyar gəzməliyəm...

## DOST

Gəl, bir gecə
xəbər etmədən,
səssiz-səmirsiz gəl,
Pilləkənlər belə çırıldamasın.
Elə yorğunam ki,
heç sorma,
Mənim halımı
anlasan, sən anlarsan.
Bir kimsə duymasın,
Səhərə qədər
üz-üzə oturaq, danışaq.
Mavi bir göyüzümüz olsun,
Qanadlarımız
buludlara toxunana qədər
uçaq, uçaq...

İnsanlardan buz kimi soyudum,
İndi yalnız sən varsan.
Elə yorğunam ki,
heç sorma,
Mənim halımı
anlasan, sən anlarsan...

## MAVİŞ QIZIM

Hələ, hələ çox kiçiksən,
Uyu, uyu, maviş qızım.
Sazdan-sözdən nə anlarsan,
Qışdan - yazdan nə anlarsan?
Ninnilərdən nə anlarsan,
Türkülərdən nə anlarsan?

Maviş qızım, uyu, uyu,
Bir az böyü, bir az böyü,
Bir qış böyü, bir yaz böyü...
Uyu, mənim maviş qızım,
Sən uyusan, gün ötəcək...
Keloğlan muradına
yetəcək,
Ağlayan nar güləcək...
Eh, nələr, nələr olacaq,
Uyu, mənim maviş qızım.

## PAYIZ YOZUMU

Hava bu gün də buludlu,
Sərt, soyuq külək əsəcək.
Bütün insanlar ümidli,
Təkcə
Şairlər məhzun-məhzun gəzəcək.
Yağış yağacaq, incə-incə,
Müşəmbəli qızlar görünəcək.
Ağaclar, çocuqlar gizlicə,
Hiss olunmadan böyüyəcək.

Yollara yarpaqlar töküləcək,
Bir adam xəyalında
səninlə yan-yana yeriyəcək...
Küçədən keçənlər:
"Bu yağışın altında bu adam
təkbaşına nə gəzir?" - deyəcək...
Yollara yarpaqlar töküləcək...

*Hazırladı:*
***DİLSUZ***

